# Sənin söylədiklərin və dəvət etdiyin şey gözəldir. Kaş ki bizim etdiyimiz günahların bir kəfarəsi olduğunu bizə xəbər versəydin - dedilər

Abdullah bin Abbasdan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə (o belə demişdir): Şirk əhlindən olub bir çox insan öldürmüş, çox zina etmiş bir toplum insan Məhəmmədə (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib: Sənin söylədiklərin və dəvət etdiyin şey gözəldir. Kaş ki bizim etdiyimiz günahların bir kəfarəsi olduğunu bizə xəbər versəydin - dedilər. Bu zaman Uca Allahın: {Onlar Allahla yanaşı başqa məbuda ibadət etməz, Allahın haram etdiyi canı haqsız yerə qətlə yetirməz və zina etməzlər....} [Furqan surəsi: 68] və {(Ey Peyğəmbər!) de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin....} [Zümər surəsi: 53] ayəsi nazil oldu.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına bir çox insanı öldürmüş, çox zina etmiş bəzi müşriklər gəldilər və Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedilər: İslama və onun təlimlərinə dəvət etdiyin şeylər çox gözəldir, lakin bizim halımız, etdiyimiz şirk və böyük günahlar necə olacaq, bunların kəffarəsi varmı? Bu zaman Uca Allahın, günahlarının çox və böyük olmasına rəğmən insanlardan tövbəni qəbul etdiyini əgər belə olmasaydı onların küfür və azğınlıqlarında davam edəcəklərini və bu dini qəbul etməyəcəklərini bildirən iki ayəsi nazil oldu.

https://sunnah.global/hadeeth/az/show/65071